# Xalqımızın şanlı zəfər tarixinin növbəti salnaməsi

**Azərbaycan Ordusunun sentyabrın 27-də başlanan əks-hücum əməliyyatı uğurla başa çatdı. Müzəffər ordumuz üç yüzdən çox şəhər, qəsəbə və kəndlərimizi işğaldan azad etdi. Noyabrın 9-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları bəyanatla münaqişənin həlli diplomatik mərhələyə daxil oldu. Beynəlxalq siyasi icmalçılar bu sənədi Ermənistanın məğlubiyyəti, Azərbaycanın isə hərbi zəfərinin təsdiqi kimi qiymətləndirirlər.**



Azərbaycan xalqı tarixinin ən möhtəşəm və yaddaqalan günlərini yaşayır. 28 il işğal altında olan torpaqlarımızı 44 gün ərzində azad edən ordumuz Azərbaycan tarixinin ən unudulmaz səhifəsini yazdı. Dövlətimizin qətiyyəti, ordumuzun gücü, xalqımızın misilsiz dəstəyi sayəsində əldə olunan bu möhtəşəm qələbə, əlbəttə ki, tariximizin şanlı zəfəri kimi gələcək nəsillərin xatirəsində əbədi yaşayacaq. Xüsusilə də Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları bəyanatda əks olunan müddəalar tarixi qələbəmizin dəyərini daha da yüksəltməklə yanaşı, həm də ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasını təmin etdi. Beynəlxalq siyasi şərhçilər, nüfuzlu KİV bu bəyanatı rəsmi Bakının tarixi qələbəsi kimi qiymətləndirirlər. Doqquz maddədən ibarət olan sənədin Azərbaycanın milli maraqlarına cavab verdiyini vurğulayan siyasi ekspertlər əlavə edirlər ki, bu nailiyyət gözlənildiyindən də artıqdır.

Bəyanatın 2-ci maddəsində yazılır: 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Bu, itkisiz, yeni hərbi əməliyyatlar aparmadan Ağdam rayonunun işğaldan azad olunması deməkdir. Eyni sözləri sənədin 6-cı maddəsi barədə də demək olar. Həmin maddədə qeyd olunur ki, Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Xatırladaq ki, Kəlbəcər Azərbaycanın ən yüksək dağ rayonudur. Dəniz səviyyəsindən 1961 metr hündürlükdə yerləşir. Ən hündür zirvələri Camışdağ dağındakı zirvə (3724 m) və Dəlidağdır (3616 m). Ərazinin çox hissəsi meşəlikdir. Kəlbəcər qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göy-Göl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir və 1936 kvadratkilometr ərazisiyə malik strateji əhəmiyyətli Kəlbəcər rayonunun itkisiz qaytarılması Azərbaycanın böyük uğurudur.

Laçın rayonu da, həmçinin strateji əhəmiyyətli ərazimizdir. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın rayonu şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonu ilə, qərbdən isə Ermənistanla həmsərhəddir. Bundan əlavə, Laçının səthi dağlıqdır və ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594 m). Laçın rayonunun itkisiz qaytarılması həm də ona görə əhəmiyyətlidir ki, bu rayonumuz ən çox erməni məskunlaşmasına məruz qalmışdı. Belə ki, Qarabağ müharibəsindən sonra imzalanan atəşkəsdən dərhal sonra Ermənistan hakimiyyəti tərəfindən Laçın şəhərinin və rayonun bir neçə ətraf kəndinin məskunlaşdırılmasına dair məxfi əmr verilmişdi. Ermənistan bununla Dağlıq Qarabağa aparan yeganə yolun keçdiyi strateji mühüm ərazini nəzarətdə saxlamağa çalışırdı. Ermənistan o vaxt hesab edirdi ki, Laçın rayonunun dörd yaşayış məntəqəsinin məskunlaşdırılması kifayətdir. Lakin ermənilərin və müharibə veteranlarının planları daha böyük idi. Onlar iddia edirdilər ki, işğal etdikləri ərazilərin hamısında məskunlaşmağa haqları var, çünki bu ərazilər “qədim erməni torpaqlarıdır”. Nəticədə, 1995-ci ildə Laçın rayonunun 4 yox, 12 kəndində ermənilər qanunsuz məskunlaşdırılmışdı. 2004-cü ildə isə Laçın və kəndlərində, o cümlədən digər ətraf rayonlarda yaşayan ermənilərin sayı 13500 nəfərə çatmışdı.

Üç ölkə rəhbərinin imzaladıqları bəyanata əsasən, 1 dekabr tarixində Ermənistan silahlı qüvvələri Laçını Azərbaycana qaytarmalıdır və bununla da Laçında qeyri-qanuni məskunlaşmaya son qoyulacaq.

Sənədin 6-cı maddəsində qeyd edilən məqamlardan biri də budur ki, Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Bu isə o deməkdir ki, xalqımızın mədəniyyət beşiyi hesab edilən Şuşa şəhəri Azərbaycanın nəzarətində qalacaq. Bundan başqa, tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Burada mühüm məqamlardan biri də budur ki, Azərbaycan Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. Bu isə o deməkdir ki, dəhlizdə nəzarəti daha böyük ölçüdə Azərbaycan həyata keçirəcək.

Bəyanatın ən mühüm maddələrindən biri də bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa ediləcəyi barədə müddəanın qeyd olunmasıdır. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Xüsusilə də nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin yaradılması və həmin əlaqənin təhlükəsizliyinə zəmanət verilməsi böyük strateji və mənəvi qələbədir. Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm bir məkan olan Naxçıvanın birbaşa Azərbaycanla quru yol vasitəsilə çıxış əldə etməsi muxtar respublikanın güclənməsinə və iqtisadi inkişafının daha da artmasına yeni təkan verəcək. Mütəxəssislərin fikrincə, nəqliyyat dəhlizinin böyük faydası olacaq. Bu yol istər yük, istərsə də sərnişin daşınması sahəsində kifayət qədər vacib əhəmiyyətə malik olacaq. Dövlət başçımız xalqa müraciətində bu məqamı belə qiymətləndirmişdi: “Xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu, əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı”.

Dövlət başçısı vurğuladı ki, bu bəndin birbaşa Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqəsinin olmadığını, ancaq onun təkidli tələbləri sayəsində qəbul olundu. Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmək istiqamətində tarixi addımın atıldığını bildirdi.

Üç ölkə rəhbərinin imzaladığı bəyanat dünyanın siyasi şərhçiləri tərəfindən fəal müzakirə olunur və Azərbaycanın ikinci Qarabağ müharibəsindən qalib çıxdığı vurğulanır. Məsələn, ATƏT-in Minsk qrupunun sabiq həmsədri, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayzanın sözlərinə görə, atəşkəs razılaşması müstəqil Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsidir. Amerikalı diplomat bildirir ki, Azərbaycan apardığı hərbi əməliyyatlar nəticəsində baza prinsipləri kimi qəbul edilən bütün istəklərinə nail oldu və öz mövqeyini həm hərbi, həm də siyasi cəhətdən kəskin şəkildə gücləndirdi: “Düşünürəm ki, bu razılaşma müstəqil Azərbaycanın diplomatik tarixində ən vacib razılaşmadır və əminəm ki, ən böyük diplomatik qələbədir. Bu, Azərbaycan rəhbərliyinin müdrikliyi nəticəsində baş verdi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev bu münaqişənin bütün gedişatı zamanı Azərbaycanın siyasi hədəflərinə uyğun davrandı”.

İsrailin keçmiş müdafiə naziri Aviqdor Liberman Azərbaycanla Ermənistan arasında hərbi əməliyyatların dayandırılmasına dair razılaşmaya münasibət bildirərkən “Vesti İzrail” nəşrinə vurğuladı ki, atəşkəs Azərbaycan Prezidenti İlham Əliyevin böyük şəxsi qələbəsidir: “Bu cür qərarların nə qədər çətin qəbul edildiyini başa düşürəm. Bu, ilk növbədə, məhz onun iradi qərarıdır. Məsuliyyəti öz üzərinə götürməyə hazır olmaq insan xarakterindən, vəziyyəti dəqiq təhlil etmək və düzgün nəticələr çıxarmaq qabiliyyətindən xəbər verir. Bu razılaşma beynəlxalq statusunu gücləndirməklə yanaşı, onu milli və regional liderə çevirdi. Bu vəziyyətdə millətin konsolidasiyası və dövlətçilik anlayışının möhkəmlənməsində yeni bir mərhələdən danışmaq olar”.

“The Bell” nəşri də yazır ki, Qarabağdakı müharibə Azərbaycanın diplomatik qələbəsi ilə başa çatdı. Nəşrin əməkdaşı Sergey Smirnov qeyd edir ki, əldə olunan razılaşma Azərbaycanın hərbi qələbəsinin nəticələrini möhkəmləndirərək bölgədəki güc nisbətini kəskin şəkildə dəyişdirir. “Financial Times” qəzeti də “Eurasia Group”un politoloqu Zahariya Uutlinin bəyanat barədə sözlərinə yer vermişdir: “Razılaşmanın təfərrüatları açıq şəkildə Azərbaycanı altı həftəlik müharibənin qalibi edir. Ermənistana böyük əraziləri geri qaytarmasını həvalə edir və sənəddə nəinki Dağlıq Qarabağın tanınmasından, heç xüsusi bir statusdan da bəhs olunmur”.

Məşhur ingilis analitik, Qarabağ probleminin tədqiqatçısı, “Carnegie Europe”un baş tədqiqatçısı, Qafqaz üzrə ekspert Tomas De Vaal da hesab edir ki, bu, erməni tərəfi üçün alçaldıcı bir razılaşmadır. Jurnalistə “Bu, ermənilər üçün böyük məğlubiyyətdir”, – deyən De Vaal vurğulayır ki, Şuşanın azad edilməsi belə Azərbaycan tərəfinin qələbəsini elan etməsinə kifayət edirdi. İngilis analitik düşünür ki, 7 rayonun Azərbaycana qayıtması ölkə üçün mənəvi stimula çevriləcək.

Bir sözlə, noyabrın 9-da imzalanmış bəyanat Azəbaycanın qələbəsini rəsmiləşdirdi, xalqımızın əzmini, qəhrəmanlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Ən əsası, bu qələbəmiz həm də Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu və güclü xalq strategiyasının məntiqi nəticəsidir. Şübhə yoxdur ki, 9 noyabr bəyanatı möhtəşəm diplomatik qələbə kimi milli şüurumuzda iz qoyacaq.

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*